**Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli fərmanı ilə təsdiq edilmiş "20 yanvar şəhidi" fəxri adi haqqında əsasnamə"də dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Məhkəmələr və hakimlər haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2008-ci il 16 dekabr tarixli 741-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 13 fevral tarixli 151 nömrəli Sərəncamının 1.1-ci bəndinə uyğun olaraq qərara alıram:

Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 29 dekabr tarixli 51 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998-ci il, № 12, maddə 765) ilə təsdiq edilmiş "20 Yanvar Şəhidi" fəxri adı haqqında Əsasnamə"nin 1-ci bəndinin ikinci cümləsində "yaralanma, zədələnmə, kontuziya və digər bədən xəsarətindən" sözləri "xəsarətdən (yaralanma, travma, kontuziya)" sözləri ilə əvəz edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2009-cu il
№ 111